

# Multikulturalizm ənənəsi yüksək səviyyədədir

Azərbaycanda multikulturalizmin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun hakimiyyəti dövründə ölkədə dinindən və dilindən asılı olmayaraq, bütün xalqlar rifah və firavanlıq içərisində yaşamışdırlar. Ümummilli lider Heydər Əliyev respublikamızda multikulturalizm siyasətini uğurla həyata keçirmiş və ölkəmizi dünya miqyasında multikulturalizm ölkəsi kimi tanıtmışdır. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının multikultural adətlərinin qorunması sahəsində həyata keçirilən siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab İlham Əliyevin ölkəmizdə multikulturalizmin inkişaf etdirilməsində və multikulturalizmin ölkənin sosial-iqtisadi inkişafında rolunun artırılmasında misilsiz xidmətləri olmuşdur. Belə ki, ölkədə multikulturalizmin daha da inkişaf etdirilməsi məqsədilə cənab İlham Əliyevin 15 may 2014-cü il tarixli 167 nömrəli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış, 11 yanvar 2016-cı il tarixli 1673 nömrəli sərəncamı ilə 2016-cı il Multikulturalizm ili elan edilmişdir.

Müasir dövrdə multikulturalizm Azərbaycanda əhəmiyyətli rol oynayır. Müasir multikultural cəmiyyətlər müxtəlif mədəni strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan sabit inkişaf edə bilməzlər. Bunun sübutlarından biri Azərbaycan Respublikasının inkişafıdır ki, burada Azərbaycanın milli mədəniyyətinə müvəffəqiyyətlə inteqrasiya olan müxtəlif xalqların nümayəndələri harmonik inkişaf edirlər.

Azərbaycanda multikulturalizm dövlət siyasəti kimi qəbul edilmişdir. Multikulturalizm Azərbaycanda dövlət siyasəti ilə yanaşı, həm də əhalinin həyat tərzidir. Azərbaycanda multikulturalizmin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapmışdır.

Hamımıza məlumdur ki, Sovet hakimiyyəti illərində Azərbaycan xalqına öz milli bayramlarını qeyd etmək qadağan edilmişdir. Hər bir xalqı yaşadan, onun bir xalq kimi var olmasını təmin edən başlıca amillərdən biri də onun adət-ənənəsi və mənəvi dəyərləridir. Çox təəssüflər olsun ki, Azərbaycan xalqına uzun illər nəinki bu dəyərləri təbliğ edə bilməsi hətta qeyd etməsi belə qadağan edilmişdir. Bütün bunlara baxmayaraq, xalqımız bu dəyərləri qoruyub saxlamış və bu günlərə gətirib çıxara bilmişdir. Xalqımıza qarşı edilən bu qədər haqsızlıqlardan sonra ulu öndər bizim yaşadıqlarımızı başqa xalqların yaşamaması üçün bu məsələlərə böyük həssaslıqla yanaşmış, ölkəmizdə olan müxtəlif xalqlar və azlıqlara öz adət-ənənələrini yaşatması üçün hər cür şərait yaradılmışdır. Bu gün də bu ənənə dövlət başçısı İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir.

Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Keçmiş dövrlərdən bəri burada avarlar, talışlar, ləzgilər, udinlər, malakanlar və s. kimi millətlər sülh və əmin-amanlıq içərisində yaşamışdırlar. Biz bütün bunların Qobustan rayonunun Xilmilli kəndində də şahidi ola bilərik. 1834-1840-cı illər ərəfəsində yüzlərlə malakan ailələri Rusiyanın müxtəlif quberniyalarından əvvəlcə Altı ağac deyilən əraziyə, oradan da Xilmilli kəndinə köçürülmüşdür. Bu ərazidə əvvəllər yalnız malakanlardan ibarət böyük kənd salınmışdır. Qonaqsevər Azərbaycan xalqı hələ XIX əsrin əvvəllərindən onlara pənah gətirmiş malakanlara qucaq açmış, həmişə onlara qarşı dost münasibətində olmuşdur. Bu da Azərbaycan xalqının hər zaman multikultural bir xalq olmasını bir daha sübut edir. Bu kənddəki insanlar tarixən çox mehriban olmuş bir-birlərinə qaynayıb qarışmışlar.

Qobustanın Xilmilli kəndindəki malakanlarla azərbaycanlıların bir çox adətləri üst-üstə düşür. Məsələn, onların Pasxa bayramı ilə bizim Novruz bayramı arasında bəzi zahiri oxşarlıqlar vardır. Onlar da pasxada yumurta boyayır, şirniyyatlar bişirir, qonşuları qonaq dəvət edirlər, eləcə də azərbaycanlılar onları Novruz bayramında, Qurban və Ramazan bayramlarında qonaq dəvət edirlər. Xilmilli kəndi az kəndlərdən biridir ki, orada həm müsəlman, həm də molakan dini icması birlikdə fəaliyyət göstərir. Onlar həftənin bazar günləri dini icmaya gedir və tam sərbəst şəkildə ibadətlərini edirlər. Kənddə həm də Xilmilli kənd məscidi mövcuddur. Xilmilli kənd məscidinin din xadimi Mehrəli Muradov və Molakan icmasının din xadimi Raxmanin-Fyodor hər zaman əlaqəli şəkildə çalışırlar. Kənddə hər hansı millətin məclisi olmasından asılı olmayaraq, bütün kənd iştirak edir və hər iki tərəfin ağsaqqallarının tövsiyələrini gənc nəsil böyük maraqla dinləyir. Azərbaycanın hər yerində Qobustan rayonunun Xilmilli kəndindəki insanlar dinindən, dilindən asılı olmayaraq çox mehriban şəkildə həyatlarını davam etdirirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 07 may 2019-cu ildə Qobustan rayonunda olarkən demişdir: “Biz Qobustan rayonunun timsalında ölkəmizin ümumi inkişaf dinamikasını görürük”. Bu gün Qobustandakı tolerant mühit Qobustanın necə inkişaf etməkdə olduğunu bir daha sübut edir.

**Günel SƏFTƏROVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi.**

**Respublika.- 2019.- 22 noyabr.- S.9.**